Tərəflər ADA Universitetinin Macarıstanın hazırda üç ali təhsil ocağı ilə imzaladığı əməkdaşlıq anlaşmalarının nəticələrini nəzərdən keçirib, artan sayda tələbə və müəllim heyəti üzvünün mübadilə proqramlarında iştirakını məmnunluqla qeyd ediblər. Vurğulanıb ki, ADA Macarıstan universitetlərinə 27 nəfər göndərməklə, qarşı tərəfin 7 tələbəsini mübadilə semestrlərinə qəbul edib. Tərəflər bu rəqəmləri daha da artıracaqlarını bildirilər. ADA Universitetində Vışeqrad Qrupunun 25 illik yubileyinin elmi konfransla qeyd edilməsi də əməkdaşlığın uğurlu nəticələrindən biri kimi qeyd olunub.

**AZƏRTAC**

# Nazir Azad Rəhimov BMT-də gənclərin məşğulluğu ilə bağlı əlaqələndirmə komissiyasının yaradılmasını təklif edib

**Nyu-York şəhərində Birləşmiş Millətlər Təşkilatının baş qərargahında 8-ci İqtisadi və Sosial Şuranın Gənclər Forumu öz işinə başlayıb. BMT İqtisadi və Sosial Şurasının prezidenti xanım İnqa Rhonda Kinq, Baş Assambleyanın prezidenti xanım Maria Fernanda Espinosa Qarces, BMT baş katibinin gənclər üzrə xüsusi nümayəndəsi Jayathma Vickramanayake və digər rəsmilərin iştirak etdikləri forumda Azərbaycanı gənclər və idman naziri Azad Rəhimov təmsil edir.**



Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazirlərin, rəsmilərin, gənclər sahəsinə məsul nümayəndələrin qatıldıqları forumda “Gənclik 2030: Gənclərlə və gənclər üçün işləmək”, “Gənclərin inkişafına investisiya: Maliyyələşdirmə və digər tətbiq vasitələri” və s. mövzular ətrafında fikir mübadilələri aparılıb, gələcək planlar müzakirə edilib.

Nazir Azad Rəhimov çıxışında deyib: “2030 Gündəliyinin reallaşması üçün dövlət könüllülərin sayının artırılması, könüllülük fəaliyyətinin inkişafı, könüllülərə dəstək verilməsi üçün mühüm addımlar atır. 2018-ci ilin may ayından start götürən Dayanıqlı İnkişaf Məqsədləri üzrə seçilmiş 17 gənc səfirin ölkəmizdə təqdimat və mükafatlandırma mərasimi də keçirilib. BMT modeli gənclər üçün yeni biliklərin əldə olunması, tənqidi yanaşma, motivasiya istiqamətində seçim, təlim və effektiv inkişaf mexanizmidir”.

Çıxışı zamanı Azad Rəhimov Azərbaycan ərazilərinin 20 faizinin Ermənistan tərəfindən zəbt edildiyini və öz yurd-yuvalarından didərgin düşən insanların böyük əksəriyyətinin məhz gənclər olduğunu bildirib.

Plenar iclasda çıxış edən nazir Minilliyin İnkişaf Məqsədləri (2000-2015) və Dayanıqlı İnkişaf Məqsədləri (2016-2030) proqramlarının həyata keçirilməsindən öncəki mərhələdə ölkənin əldə etdiyi uğurlardan, qarşıya qoyulan məqsədlərdən və proqramlardan irəli gələn öhdəliklərdən danışıb. O, BMT-nin çətiri altında sadəcə görüşlərin və müzakirələrin aparılması deyil, gənclərin məşğulluğunun təmin olunması istiqamətində real işlərin görülməsi məqsədilə xüsusi əlaqələndirmə komissiyasının yaradılması təklifini irəli sürüb.

ABŞ-a səfəri çərçivəsində nazir Azad Rəhimov BMT-nin baş katibinin gənclər üzrə elçisi xanım Jayathma Vickramanayake, BMT İqtisadi və Sosial Şurasının prezidenti xanım İnqa Rhonda Kinq, Serbiyanın gənclər və idman naziri Vanja Udovicic, Rusiya nümayəndə heyətinin BMT İqtisadi və Sosial Şurasında rəhbəri, gənclər siyasəti üzrə Federal Agentliyin nümayəndəsi Aleksandr Buqayev, Ukraynanın gənclər və idman naziri İqor Jdanov, Avstriyanın ailə məsələləri üzrə naziri Yuliane Boqner-Ştrauss, Əfqanıstanın gənclər məsələləri üzrə nazir müavini Kamal Sadat ilə görüşlər keçirib. Görüşlərdə gənclərin məşğulluğu sahəsində informasiya mübadiləsi aparılıb, qarşılıqlı layihələr haqqında danışılıb, eyni zamanda, Rusiya və Azərbaycan arasında “Tələbə baharı” və digər layihələrin reallaşması mövzuları müzakirə olunub.

**AZƏRTAC**

# Beynəlxalq Valyuta Fondu ilə Azərbaycanın gələcək inkişaf planları müzakirə edilib

**Beynəlxalq Valyuta Fondu (BVF) ilə Azərbaycan arasında texniki əməkdaşlıq sahəsində mövcud əlaqələrinin hazırkı vəziyyəti və perspektivləri müzakirə olunub.**

Maliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, aprelin 10-da maliyyə naziri Samir Şərifov Beynəlxalq Valyuta Fondunun Azərbaycan üzrə missiyasının yeni rəhbəri Natalia Tamirisa ilə görüşüb. Görüşdə Azərbaycan üzrə missiyanın keçmiş rəhbəri Məhəmməd əl-Qorçi də iştirak edib.

Tanışlıq xarakteri daşıyan görüşdə BVF ilə Azərbaycan arasında texniki əməkdaşlıq sahəsində mövcud əlaqələrinin hazırkı vəziyyəti və perspektivləri, gələcək inkişaf planları barədə fikir mübadiləsi aparılıb. Həmçinin ölkədə makroiqtisadi sabitliyin, davamlı və dayanıqlı iqtisadi inkişafın təmin olunduğu, əlverişli biznes və investisiya mühitinin yaradıldığı qeyd olunub.

S.Şərifov N.Tamirisaya gələcək fəaliyyətində uğurlar arzulayıb, BVF ilə Azərbaycan arasında mövud yüksək səviyyəli əlaqələrin daha da dərinləşdirilməsi istiqamətində səy göstərəcəyinə ümidvar olduğunu bildirib.

**AZƏRTAC**

# Baş prokuror Ucar rayonunda vətəndaşların qəbulunu keçirəcək

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, baş prokuror Zakir Qaralov aprelin 19-da saat 10:00-da Ucar Rayon Prokurorluğunun inzibati binasında Ucar, Ağdaş və Zərdab rayonlarının sakinlərinin qəbulunu keçirəcək.**

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qəbulda vətəndaşların prokurorluq orqanlarının səlahiyyətlərinə aid olan müraciətlərinə baxılacaq.

Vətəndaşların qəbulla bağlı qeydiyyatı və Ucar rayonuna gəlmələri müvafiq rayon prokurorları tərəfindən təşkil olunacaq.

Vətəndaşlar yaşadıqları ərazi üzrə rayon prokurorluqlarına yazılı və ya şifahi müraciət etməklə yanaşı, Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsinin 437-28-79 nömrəli telefonu və contact@prosecutor.gov.az elektron poçt ünvanı vasitəsilə də qəbula yazıla bilərlər.

**AZƏRTAC**

# On milyonuncu vətəndaşın doğum haqqında şəhadətnaməsi valideynlərinə təntənəli surətdə təqdim olunub

**Bu il aprelin 6-da respublikamızın on milyonuncu vətəndaşının dünyaya gəlməsi ilə Azərbaycan demoqrafik inkişaf baxımından nəinki keçmiş sovet ittifaqı dövlətləri, həmçinin bir çox Avropa ölkələri arasında liderə çevrilib.**



Bu əlamətdar hadisə münasibətilə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Azərbaycan xalqını və körpənin valideynlərini təbrik edərək xeyir-dua veriblər.

AZƏRTAC xəbər verir ki, aprelin 10-da körpənin valideynləri Rauf Həsənov və Nigar Ocaqova Ədliyyə Nazirliyinin Bakı şəhəri Nərimanov rayon qeydiyyat şöbəsinə gələrək ilk övladlarının adını məhz Mehriban xanım Əliyevanın şərəfinə Mehriban adlandırdıqlarını bildiriblər.

Valideynlər Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın analara və uşaqlara daim həssaslıqla yanaşdığını qeyd edib, onlara göstərilən qayğıya görə dövlətimizin başçısına və xanımına minnətdarlıqlarını ifadə ediblər.

Qeydiyyat şöbəsinin rəisi Səadət İsmayılova on milyonuncu vətəndaşımız Mehriban Həsənovanın doğum haqqında şəhadətnaməsini təntənəli surətdə valideynlərinə təqdim edib.

Sonda valideynlər təbrik edilib, onlara xatirə hədiyyəsi təqdim olunub, övladlarına uzun ömür və uğurlu gələcək arzulanıb.

**AZƏRTAC**

# İctimaiyyətin ədliyyə və məhkəmə fəaliyyəti barədə geniş məlumatlandırılması məqsədilə brifinq keçirilib

**İctimaiyyətin ədliyyə və məhkəmə fəaliyyəti barədə daha geniş məlumatlandırılması məqsədilə Ədliyyə Nazirliyinin Azərbaycan Mətbuat Şurası ilə birgə nazirliyin fəaliyyət istiqamətləri üzrə reallaşdırdığı ardıcıl tədbirlər davam etdirilir.**

AZƏRTAC xəbər verir ki, aprelin 10-da Bakı Biznes Mərkəzində Ədliyyə Nazirliyinin qeydiyyat və notariat fəaliyyəti, tətbiq olunan informasiya-kommunikasiya texnologiyaları, elektron sistemlər və müxtəlif reyestrlər barədə növbəti brifinq keçirilib.

Tədbirdə nazirliyin aidiyyəti struktur qurumlarının, Mətbuat Şurasının rəhbərliyi, Milli Məclisin deputatları, ədliyyə naziri yanında İctimai Komitənin üzvləri və vətəndaş cəmiyyəti institutlarının, eləcə də kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak ediblər.

Brifinqi açan nazirliyin insan hüquqları və ictimaiyyətlə əlaqələr idarəsinin rəis müavini Aynur Sabitova və Mətbuat Şurasının sədri Əflatun Amaşov açıq hökumətin təşviqi prinsipindən irəli gələrək əhalinin mütəmadi maarifləndirilməsi işində vətəndaş cəmiyyəti institutlarının və kütləvi informasiya vasitələrinin mühüm rolunu qeyd edib, bu baxımdan belə tədbirlərin əhəmiyyətini vurğulayıblar. Bildirilib ki, fəaliyyətini hər zaman şəffaflıq və aşkarlıq prinsipləri əsasında quran Ədliyyə Nazirliyi media orqanları ilə əməkdaşlığa daim xüsusi önəm verir və nazirliyin bütün fəaliyyət istiqamətləri barədə brifinqlərin keçirilməsi mütəmadi xarakter daşıyır.





Sonra nazirliyin qeydiyyat və notariat baş idarəsinin rəisi İlqar Məmmədov, informasiya-kommunikasiya texnologiyaları idarəsinin rəisi Ağakərim Səmədzadə və Əhalinin Dövlət Reyestri Xidmətinin rəis müavini Mehdi Nəcəfov bu sahələrdə fəaliyyətin təşkili, həyata keçirilən islahatlar və yeniliklər barədə məlumat veriblər.

Brifinqdə ədliyyə və məhkəmə sahəsində tətbiq olunan innovasiyalarla tanış olan media nümayəndələrinə notariat hərəkətlərinin rəsmiləşdirilməsində tətbiq olunan rəqəmsal texnologiyalar, o cümlədən notariat ofislərini vahid şəbəkədə birləşdirən “Elektron notariat” informasiya sistemi barədə məlumat verilib. Prezident İlham Əliyevin qanunvericilik təşəbbüsü ilə ötən ilin noyabrında qəbul edilmiş “Notariat haqqında” Qanuna edilən əsaslı dəyişikliklərin daha müasir texnologiyaların və innovasiyaların tətbiqinə geniş imkan yaratdığı qeyd olunub.

Sonra məsafədən xidmətlərə tələbatın artması ilə əlaqədar və əhalinin məmnunluğunun təmin edilməsi üçün müasir avadanlıqla təchiz olunan “Elektron notariat” informasiya sisteminə birbaşa çıxışı olan notariusların xüsusi səyyar çantaları, habelə bu yaxınlarda istifadəyə verilmiş elektron ədliyyə köşkü barədə məlumat verilib.

Bununla yanaşı, dövlətimizin başçısının rəhbərliyi ilə sahibkarlıq sahəsində həyata keçirilən islahatlar, onların səmərəli fəaliyyəti üçün əlverişli şəraitin yaradılması, bu sahədə yoxlamaların dayandırılması ilə bağlı imzalanan fərman və sərəncamlar, qanunvericiliyə edilmiş mütərəqqi dəyişikliklərə əsasən iştirakçısı olduqları müqavilələr üzrə öhdəliklərin notariusun icra qeydi əsasında sadələşdirilmiş elektron qaydada həyata keçirilməsi imkanları xüsusilə vurğulanıb. Həmçinin vətəndaşların ailə və mülki hüquq münasibətlərindən yaranan sənədlərin toplanmasını və mühafizəsini həyata keçirən dövlət notariat arxivinin və vətəndaşlıq vəziyyəti aktlarının reyestri xidmətinin fəaliyyətindən söhbət açılıb. Bildirilib ki, hazırda vətəndaşlıq vəziyyəti haqqında akt qeydlərinin avtomatlaşdırılmış qaydada aparılması 15 milyona yaxın arxiv sənədinin rəqəmsallaşdırılması nəticəsində mümkün olub.

Görülən tədbirlər arasında ailə-nikah münasibətlərinin qorunub saxlanmasına xidmət edən, vətəndaş cəmiyyəti institutları ilə birgə layihə çərçivəsində qeydiyyat şöbələrində təşkil olunan psixoloqların mediasiya xidmətlərinin sosial əhəmiyyətindən danışılıb. Qeyd olunub ki, ötən ilin sentyabrından verilməsinə başlanılmış yeni nəsil şəxsiyyət vəsiqələrinin elektron daşıyıcısındakı məlumatlar “Əhalinin Dövlət Reyestri” informasiya sistemindən əldə edilir. Keçən əsrdə tərtib edilmiş vətəndaşlıq vəziyyəti aktları barədə milyonlarla məlumatın eyniləşdirilməsi həyata keçirilməklə mötəbərliyi təmin olunur.

Brifinqdə, həmçinin ədliyyə orqanları tərəfindən əhaliyə 30-dan çox elektron xidmətlərin göstərilməsi, onların səmərəliliyinin artırılması və tətbiqinin genişləndirilməsi vurğulanıb. İnnovativ həllərin tətbiqinin məhkəmələrin fəaliyyətində də geniş vüsət aldığı, “Elektron məhkəmə” informasiya sisteminin vətəndaşların məhkəmələrə elektron müraciət imkanlarını yaratdığı, ədalət mühakiməsinin əlçatanlığını asanlaşdırdığı qeyd olunub.

Milli Məclisin deputatları, vətəndaş cəmiyyəti institutlarının təmsilçiləri və kütləvi informasiya vasitələrinin rəhbərləri çıxışlarında bildiriblər ki, belə tədbirlər dövlət qurumları ilə əməkdaşlığın dərinləşdirilməsinə xidmət edir. Ədliyyə Nazirliyi ilə Mətbuat Şurasının təşkil etdiyi görüş KİV-lərlə nazirlik arasında əməkdaşlığın genişləndirilməsi, habelə bu sahədə görülmüş işlər barədə ictimaiyyətin dolğun məlumatlandırılması baxımından vacib əhəmiyyət kəsb edir.

Brifinqdə sual-cavab sessiyası keçirilib, iştirakçılar arasında fikir mübadiləsi aparılıb, media ilə əlaqələrin əhəmiyyəti, qarşılıqlı fəaliyyətin zəruriliyi və əməkdaşlığın prioritet istiqamətləri müzakirə olunub, jurnalistlərin sualları cavablandırılıb.

**AZƏRTAC**

# Regional turizmin inkişafı ilə bağlı sahibkarlarla görüş

Dövlət Turizm Agentliyi tərəfindən Xaçmazda regional turizmin inkişafı ilə bağlı sahibkarlarla keçirilən görüşdə məsələ geniş müzakirə olunmuş, problemlərin həlli yolları araşdırılmışdır. Konfrans xarakterli bu görüşdə rayonun əksər turizm mərkəzlərinin rəhbərləri iştirak etmişlər. Tədbiri **Dövlət Turizm Agentliyinin (DTA) turizm siyasəti və strategiyası şöbəsi turizm sənayesi və layihələrlə iş sektorunun baş məsləhətçisi Rauf Səfərov** açaraq görüşün məqsədi və əhəmiyyəti barədə iştirakçıları məlumatlandırmış, regionda turizmin inkişafı istiqamətində sahibkarların qarşısında duran vəzifələrdən danışmışdır.



Sonra sahibkarların çıxışları dinlənilmişdir. “Atlant” istirahət mərkəzinin direktoru Tahir Qədəşov, “İstisu” istirahət mərkəzinin icraçı direktoru Tizrui Teyyub, “Azərin” istirahət mərkəzinin nümayəndəsi Vüqar Rəhimli, “Malibu” istirahət mərkəzinin rəhbəri Rüfət Nəsirov, “Kardinal” istirahət mərkəzinin direktoru Şəfiqə Ramazanova, “Lotos” istirahət mərkəzinin direktoru Şahlar Nəsirov, “Ulduz” istirahət mərkəzinin icraçı direktoru Atakişi Əsədov və başqa sahibkarlar çıxış edərək fəaliyyət göstərdikləri Nabran zonasında yay istirahət mövsümündə işdə üzləşdikləri problemlərdən, qarşılaşdıqları çətinliklərdən danışmışlar. Sahibkarlar çıxışları zamanı qeyd etmişlər ki, əhalinin istirahəti üçün analoqu olmayan mavi Xəzərin sahilində yerləşən gözəl Nabranın potensial turizm imkanlarından layiqincə istifadə edə bilmirik. Ərazidə lazımi infrastruktur şəraiti demək olar ki, yoxdur. Yollar yararsız vəziyyətdədir. Turizm obyektlərinin qazlaşdırılması illərdir ki, çox ciddi problem olaraq qalır. Obyektlərdə qaz sayğaclarının quraşdırılması üçün tələb olunan məbləğ həddindən artıq yüksək olduğundan, sahibkarlar bu xidmətdən imtina etməli olurlar. Ərazidə ən təhlükəli və acınacaqlı vəziyyət mərkəzləşdirilmiş kanalizasiya sisteminin olmaması, çirkab sularının çimərlik zonasına axıdılmasıdır. Daha bir problem Nabran istirahət zonasında bir dənə də olsa valyutadəyişmə məntəqəsinin olmamasıdır.

Turizm obyektlərinin reklamının təşkilində də sahibkarlar çətinliklərlə üzləşirlər. Yay mövsümündə ərazilərin məişət tullantılarının daşınmaması burada antisanitariya vəziyyəti yaradır. Nabran zonasında daha bir problem isə yerli icra orqanları və bələdiyyələr tərəfindən mal-qaranın çimərlik ərazisinə buraxılmaması üçün lazımi tədbirlərin görülməməsidir.

Tədbirdə **DTA-nın turizm siyasəti və strategiyası şöbəsinin böyük məsləhətçisi Fərid Əliyev, turizm məhsullarının hazırlanması üzrə mütəxəssis Vahid Şükürov və Xaçmaz Turizm informasiya mərkəzinin direktoru Vasif Əhmədov** çıxış edərək sahibkarlara tövsiyələrini vermiş, onları maraqlandıran bir sıra sualları cavablandırmışlar. Sonda sahibkarlarla belə görüşlərin mütəmadi olaraq keçirilməsi təklifi irəli sürülmüşdür.

**Ziyafəddin BAYRAMOV,**
**“Respublika”.**

# Tariximizin xanlıqlar dövrü həqiqətlərinə obyektiv işıq salan əsər

**“Biz nadir irsin varisiyik. Hər bir Azərbaycan vətəndaşı bu irsə layiq olmağa çalışaraq böyük bir tarixi keçmişi, zəngin mədəniyyəti, yüksək mənəviyyatı olan ölkəmizin həm dünəninə, həm bu gününə, həm də gələcəyinə dərin bir məsuliyyət hissi ilə yanaşmalıdır”.**

**Heydər ƏLİYEV,**
**Ümummilli lider.**

**Bəşər tarixinin qədim xalqlarından biri kimi dünya sivilizasiyasına sanballı töhfələr verən azərbaycanlılar taleyin qismətindən əsrlər boyu milli özünəməxsusluqlarını şərtləndirən keyfiyyətləri, milli dövlətçilik ənənələrini yaşatmaq, azadlıq, müstəqillik nemətinə qovuşmaq üçün çox çətin sınaqlardan, əzablı yollardan keçməli olmuşlar. Odlar yurdu Azərbaycan coğrafi-siyasi mövqeyinə görə daim fərqli sivilizasiyaların dialoqunu hiss etmiş, Qərb və Şərq mədəniyyətinin təsirinə məruz qalmışdır.**

Qədim insan məskənlərindən biri olması bu bənzərsiz məkanda tolerantlıq düşüncəsi ilə yanaşı, dövlətçilik məfkurəsinin də inkişafına təkan vermişdir. Qobustan və Gəmiqayadakı qayaüstü təsvirlər və petroqliflər, Kür-Araz və Xocalı mədəniyyətlərinə aid maddi-mədəniyyət nümunələri, kurqanlar və Azıx mağarasındakı tapıntılar sübut edir ki, hələ miladdan əvvəlki minilliklərdə bu coğrafi məkanda inkişaf etmiş mədəniyyət mövcud olmuşdur. Antik sivilizasiyasının, yunan-Roma mədəniyyətinin təsiri altında inkişaf edən elmi-mədəni irsimiz, incəsənətimiz özünəməxsus forma və məzmuna malikdir.

Karvan yollarının üzərində yerləşməklə “Böyük İpək Yolu”nun mühüm mərkəzlərindən birinə çevrilən Azərbaycan müxtəlif siyasi baxışların, iqtisadi münasibətlərin, dövlətçilik formalarının təzahürlərini də aydın hiss etmişdir. Zəngin sərvətlərə, əlverişli iqlim şəraitinə, füsunkar təbiətə malik Azərbaycan həm də geosiyasi mövqeyinə görə zaman-zaman yadelli işğalçıların hücumlarına məruz qalmış, lakin hər zaman düşmənə layiqli müqavimət göstərmişdir.

Azərbaycanlılarda milli dövlətçilik təfəkkürünün formalaşmasına təsir göstərən ictimai-siyasi və sosial-mədəni proseslər, şübhəsiz, qeyd olunanlarla məhdudlaşmır. Xüsusi vurğulamaq lazımdır ki, XVI əsrin əvvəllərində I Şah İsmayılın hərbi-siyasi fəaliyyəti nəticəsində mərkəzləşmiş Səfəvi dövlətinin yaranması ilə Azərbaycanda milli dövlətçilik təfəkkürünün formalaşması prosesi sürətlənmişdir. Xalqın ilk dəfə olaraq vahid dövlətin tərkibində birləşməsi, vahid iqtisadi-təsərrüfat sisteminin yaranması dövlətçilik təfəkkürünün formalaşmasına əhəmiyyətli dərəcədə təsir göstərmişdir. Səfəvilərin hakimiyyəti dövründə - dövlətin birinci şəxsinin poetik yaradıcılığından tutmuş Azərbaycan-türk dilinin dövlətin rəsmi dövlət dili səviyyəsinə qaldırılmasına qədər - bütün məsələlər millilik zirvəsinə ucalmışdır.

XVII əsrin əvvəlləri Səfəvi dövlətinin getdikcə zəifləməsi, həm sosial-siyasi, həm iqtisadi-təsərrüfat, həm də mədəni səviyyələrdə dövlətin milli məzmununun dəyişməsi, fars meyilliyin artması ilə müşayiət olunmuşdur. Ümumiyyətlə, XVII-XVIII əsrlər Azərbaycan dövlətinin tarixinin xanlıqlar dövrü, siyasi mikroregionallaşma mərhələsi olmuş, bu proses milli dövlətçilik təfəkkürünün inkişafını nisbətən zəiflətmişdir. Yaranmış vəziyyətdən istifadə edən “qonşu”ların - İran və Rusiyanın siyasi-coğrafi maraqlarını, hərbi-siyasi müdaxilələrini nəzərə aldıqda, o zamankı ictimai-tarixi şəraitin nə qədər ağır olduğu bir daha aydınlaşır.

Həmin dövr Azərbaycan xanlıqlarının heç biri, buna cəhdlər olsa belə, həm siyasi-regional, həm də ümummilli təfəkkür baxımından Azərbaycanın dövlətçilik maraqlarını ifadə edə bilməmişdir. Zaman-zaman Quba, Şamaxı, Şəki, Bakı xanlıqları, tam Car-Balakən azad cəmiyyəti və Ərəş sultanlığının ittifaq halında birləşməsi ilə bağlı təşəbbüslər olsa da, Azərbaycan torpaqlarını vahid dövlət hüdudlarında birləşdirmək cəhdləri səmərə verməmiş, müəyyən obyektiv və subyektiv səbəblərdən buna nail olunmamışdır.

Çox deyil, bizi özündən 100 illik bir zaman məsafəsi ilə ayıran tarixi keçmişimizə ekskurs etdikdə, milli dövlətçilik məfkurəsinin təşəkkülü, təkamülü və formalaşması milli etnosun təfəkkür fəaliyyəti ilə dinamik inkişafda və dəyişmədə olan proses kimi göz önündə canlanır.

Ötən əsrin əvvəllərində cərəyan edən qlobal proseslərin obyektiv nəticəsi kimi 1918-ci ilin 28 mayında istiqlaliyyətini bütün dünyaya bəyan etmiş, Müsəlman Şərqində ilk demokratik və hüquqi dövlət quruluşunu yaratmış Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 aylıq mövcudluğu dövründə xalqın milli mənlik şüurunu özünə qaytarmış, onun öz müqəddəratını təyin etməyə qadir olduğunu, müstəqillik əzmini əyani şəkildə nümayiş etdirmişdir. Müstəqilliyinə yenicə qovuşmuş, beynəlxalq aləmdə hələ tanınmayan gənc dövlət daxildəki erməni-bolşevik birləşmələrini zərərsizləşdirmək və özünün ərazi bütövlüyünü, birləşdiricilik missiyasını təmin etmək üçün ciddi mücadilə verməli olmuşdu.

Bütövlükdə, Azərbaycan Xalq Cümhuriyyəti mövcudluğu ilə sübut etdi ki, heç bir qüvvə xalqımızın azadlıq və suverenlik ideallarını, müstəqil dövlətçilik ənənələrini məhv etməyə qadir deyildir.

Azərbaycan xalqının qəlbində kök salmış dövlətçilik nisgilini ümummilli lider Heydər Əliyev xalqın qəlbindən silib atmışdır. Milli idrak və özünüdərkin ali təzahür forması olan müstəqil və bütöv dövlət ideyasının real həyata vəsiqə alması da məhz Heydər Əliyev şəxsiyyətinin qətiyyət və uzaqgörənliyi sayəsində mümkün olmuşdur. Ümummilli lider ölkəyə rəhbərliyinin hər iki mərhələsində milli birlik, vətəndaş birliyi məsələləri ilə yanaşı, tarixi sərhədlərimiz üzərində suveren hüquqlarımızın bərpa edilməsi və qorunması kimi ali məqsədlər naminə bütün zəruri tədbirləri həyata keçirmişdir.

XX əsrin sonlarına doğru - Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra qədim və orta əsrlər, habelə çağdaş tariximizin yenidən araşdırılması və tədqiqi, yazıya alınması prosesinə başlanılmış, xüsusən də ulu öndər Heydər Əliyevin və onun layiqli siyasi davamçısı - Azərbaycan Prezidenti cənab İlham Əliyevin siyasi iradəsi ilə bu proses ardıcıl və sistemli şəkildə həyata keçirilmişdir. “Biz müdafiədə deyil, hücumda olmalıyıq!” - deyən möhtərəm Prezident İlham Əliyev Ermənistanın Azərbaycana təcavüzü ilə bağlı həqiqətlərin beynəlxalq aləmə çatdırılmasını, işğalçının müxtəlif səviyyələrdə ifşasını, bədnam erməni lobbisinə qarşı effektiv əks-hücumun təşkilini vətəninə bağlı hər bir azərbaycanlının ümdə vəzifəsi sayır.

Dövlət başçısı AMEA-da ailmlərlə görüşündə ermənilərin bədnam təbliğatına qarşı tutarlı əks-hücumun təşkilinin elmi ictimaiyyətin başlıca vəzifələrindən biri olduğunu vurğulamışdır: *“Bu gün Azərbaycanı sadəcə olaraq ləkələmək mümkün deyildir. Ona görə ermənilər yeni bir taktikaya əl atıblar. O da ondan ibarətdir ki, yaxın və keçmiş tarix təhrif olunsun, Dağlıq Qarabağ münaqişəsinin səbəbi təhrif olunsun, Azərbaycan təcavüzkar bir ölkə kimi təqdim edilsin. Eyni zamanda bizim uzaq tariximiz təhrif olunur. Misal üçün, Azərbaycanda heç kimə sirr deyil ki, ermənilər Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağa qonaq kimi gəlmişlər. Keçən əsrin 70-ci illərində orada onların gəlişini əks etdirən bir abidə qoyulmuş, ermənilərin Qarabağa gəlişinin 150 illik yubileyi qeyd olunmuşdu. Ancaq bizdən başqa bunu az adam bilir”.*

Ötən əsrin 90-cı illərinin əvvəlində üzləşdiyi “informasiya blokada”sı mərhələsini çoxdan geridə qoymuş Azərbaycan son illər Ermənistanı nəinki iqtisadi və siyasi, ideoloji-təbliğati müstəvidə də əhəmiyyətli dərəcədə üstələmişdir. Hazırda dünyada geniş müşahidə edilən “ikili standartlar”a, ədalətsizliklərə rəğmən, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü ən müxtəlif səviyyələrdə etiraf edilir. Təqdirəlayiq haldır ki, bu prosesdə milli elmi elitanın fəallığı da son illərdə nəzərəçarpacaq dərəcədə güclənmişdir.

70 illik kommunist imperiyasının buxovları altında yaşamağa məhkum olmuş Azərbaycan yalnız müstəqillik qazandıqdan sonra öz tarixini obyektiv şəkildə araşdırmaq və sanballı elmi tədqiqatlar aparmaq imkanı qazanmışdır. Xüsusən də son illərdə ölkə rəhbərliyinin xüsusi diqqət və qayğısı ilə ölkə tarixçiləri bu istiqamətdə sanballı elmi araşdırmalar aparmışlar. Sistemlilik, mövzu əhatəliliyi, faktların orijinallığı və məzmun baxımından Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, həqiqi dövlət müşaviri, akademik Ramiz Mehdiyevin son illərdə qələmə aldığı tarixi əsərlərin əhəmiyyəti də xüsusi vurğulanmalıdır.




Görkəmli akademik milli təəssübkeş olaraq son illərdə Azərbaycanın tarixinin yalnız müasir deyil, tarixi mərhələlərini də konseptual şəkildə araşdırmış, tarixin “ağ ləkə”lərinə çevrilmiş bir çox həqiqətlərə işıq salmışdır. Bu əsərlərdə Azərbaycan tarixinin müxtəlif mərhələləri, o cümlədən xalqın görkəmli tarixi şəxsiyyətləri ilə bağlı araşdırmalar da geniş şəkildə əksini tapmış, bəzi ziddiyyətli, hətta mübahisəli məqamlara obyektiv münasibət ifadə olunmuşdur. Bu baxımdan akademik Ramiz Mehdiyevin son 10 ildə gərgin əmək bahasına ərsəyə gətirdiyi və Azərbaycanın qədim və orta əsrlər tarixinə həsr olunmuş *“Gorus-2010: absurd teatrı mövsümü”, “Şah İsmayıl Xətai ali məramlı şəxsiyyət kimi”, “Tarixi idrakın elmiliyi probleminə dair”, “Ermənilərin mif yaradıcılığı tarixdə ilk xristian dövləti kontekstində”, “Dağlıq Qarabağ: məxəzlərdən oxunmuş tarix”, “Şah İsmayıl Səfəvi: hökmdarın və döyüşçünün portreti”, “Milli ideyanın formalaşmasında tarixi idrakın faydası haqqında”* əsərləri elmi sanbalı, məzmunu baxımından nəinki tarixçi alimlərdə, ümumilikdə elmi ictimaiyyətdə böyük marağa səbəb olmuşdur. Bu tarixi-fəlsəfi məzmunlu məqalələrin dərci ilə əlaqədar kütləvi informasiya vasitələrində aparılan diskussiyalar əyani şəkildə göstərir ki, milli tarix elminin ictimai dərkində müəyyən mənada yenidən qiymətləndirilmə prosesi baş qaldırmaqdadır. Həmin tarixi məqalələr eyni zamanda milli keçmişə, Azərbaycan xalqının tarixi şəxsiyyətlərinə obyektiv münasibətin formalaşmasına ciddi təkandır.

Tarixi tədqiqatlarını davam etdirən akademik Ramiz Mehdiyevin son aylarda ictimaiyyətə təqdim olunan **“Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında”** əsəri də özünün dərin elmi məzmunu, səviyyəsi, faktların yeniliyi və orijinallı, istinad mənbələrinin mötəbərliyi ilə böyük rezonans doğurmuşdur. Əsərdə Azərbaycan tarixinin mühüm bir dövrü - xanlıqlar dövrü geniş təhlil prizmasından keçirilmişdir.

Əsər Azərbaycan tarixinin ən ağrılı və həssas mərhələlərindən sayılan xanlıqlar dövrünün nadir siyasi sənədlər əsasında qiymətləndirilməsi istiqamətində atılmış mühüm elmi addımdır. 22 orijinal sənədin daxil olduğu toplu xanlıqlar dövrünün siyasi təhlili və tarixi qiymətləndirilməsi baxımından orijinal tədqiqat işi kimi dəyərləndirilməlidir. Bu sənədlər sırasında “Fətəli xanın bütün Tiflis əhalisinə ünvanladığı 1796-cı il noyabr tarixli fərman”, yenə də Fətəli xanın “Yəhudilər, ermənilər və Zərdüşt davamçıları kimi fərqli millətlərin (cəmiyyətlərin) məzhəbi azlıqların ödədiyi vergi (rüsum) güzəştinə şamil edilməsi haqqında”, Cavad xanın “Knyaz Sisianova “Gəncə Gürcüstan və habelə döyüşə hazırlaşmaq barəsində Cavad xanın knyaz Sisianova məktubu”, Fətəli xanın Şəki hakimi Məhəmmədhəsən xana ünvanladığı “Gürcüstanın tutulması üçün hazırlıq” adlı qiymətli məxəz dəyərli sənəd və məktublar xüsusilə maraq doğurur.

Əsərdə xanlıqlar dövrünün indiyədək ciddi elmi mübahisə predmeti olan bir sıra mühüm problemlərinə, hadisə və şəxsiyyətlərinə faktlar, elmi mənbələr və arxiv sənədləri əsasında münasibət bildirilmişdir. Sözügedən tarixi mərhələyə obyektiv qiymət verməyə mane olan məsələlərə aydınlıq gətirilmişdir. Nəticədə müqayisəli və hərtərəfli elmi təhlil metodu əsasında tarixşünaslığımızda ilk dəfə olaraq xanlıqlar dövrünün siyasi və tarixi nöqteyi-nəzərdən konseptual dəyərləndirilməsi həyata keçirilmişdir.

Fikrimizcə, əsərin müəllifinin xanlıqlar dövrünü konkret siyasi sənədlər əsasında tarixi təhlilə cəlb etməsi təsadüfi olmayıb nisbətən yaxın tarixi keçmişimizlə bağlı proses və hadisələrə, şəxsiyyətlərə obyektiv qiymət vermək zərurətindən qaynaqlanır. Xanlıqlar dövrü Azərbaycan dövlətçiliyinin və xalqının taleyində oynadığı rol baxımından tariximizin ən mühüm mərhələlərindən birini təşkil edir. Bu dövrdə Azərbaycan dövlətçiliyinin mərkəzləşmə prinsipindən məhrum olması, vaxtilə Səfəvi şahlarının, xüsusən Şah İsmayıl Xətai və Nadir şahın hərbi-siyasi dühası hesabına yaradılan böyük dövlətin əvəzində iri-xırdalı onlarla feodal dövlətin meydana gəlməsi siyasi böhrana, iqtisadi və mədəni tənəzzülə səbəb olmuşdur.

Xanlıqlar arasındakı toqquşma və ziddiyyətlər nəticə etibarilə Azərbaycan ərazisinin parçalanmasına, bu coğrafiyada erməniləşdirmə siyasətinin aparılmasına rəvac vermişdir. Akademik əsərdə haqlı olaraq vurğulayır ki, Azərbaycanın ərazilərində erməni dövlətinin yaradılması öz başlanğıcını bilavasitə xanlıqlar dövründən götürən və indiyədək davam edən, çoxsaylı faciə və qırğınlara yol açan tarixi bəladır. Tarixi mənbələr təsdiq edir ki, Cənubi Qafqazda erməni adlı xalq yaşamamış, onların Dağlıq Qarabağda yerləşdirilməsi məhz XIX əsrə təsadüf etmişdir.

1813 və 1828-ci illərdə Rusiya və İran arasında imzalanmış “Gülüstan” və “Türkmənçay” müqavilələri Azərbaycan xalqının parçalanmasının, tarixi torpaqlarının bölünməsinin əsasını qoymuşdur. 1849-cu ildə Azərbaycan ərazisində İrəvan quberniyası yaradılmış, ermənilərin İrandan və Türkiyədən kütləvi surətdə Azərbaycan torpaqlarına, Dağlıq Qarabağa köçürülməsinə başlanılmışdır. İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərində məskunlaşdırılan ermənilər azlıq təşkil etmələrinə baxmayaraq, havadarlarının himayəsi altında 1828-ci il martın 21-də “Erməni vilayəti” adlandırılan süni inzibatı bölgünün yaradılmasına nail olmuşlar. Təkcə 1828-ci ildən 1830-cu ilədək Cənubi Qafqaza İrandan 40, Türkiyədən 84 min erməni köçürülərək Azərbaycan ərazisində yaradılmış Yelizavetpol və İrəvan quberniyalarının ərazisində yerləşdirilmişdir.

Müəllif xanlıqlar dövrü ilə müstəqilliyimizin ilk illəri arasında maraqlı paralellər apararaq milli təəssübkeşliklə yazır: *“Xanlıqlar dövrü ilə müstəqilliyimizin ilk illəri arasında mövcud olan kədərli oxşarlıqlardan daha biri isə torpaqlarımızın itirilməsi ilə bağlıdır. Əgər xanların özbaşınalığı və separatçı davranışları Şimali Azərbaycanın çarizm tərəfindən işğalı və 1828-ci il Türkmənçay sazişinin müddəalarına əsasən İran ermənilərinin Qarabağa, Naxçıvana və İrəvana köçürülməsi ilə yekunlaşmışdısa, ötən əsrin 90-cı illərinin əvvəlində üzləşdiyimiz vəziyyət Ermənistanın öz havadarlarının birbaşa dəstəyi sayəsində Dağlıq Qarabağı, həmçinin onun ətrafındakı 7 rayonu qəsb etməsi ilə nəticələndi. Bu həm də onu sübut edir ki, tarix ondan zəruri dərslər çıxarılmadığı təqdirdə daha amansızlıqla təkrar olunur”.*

**“Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında”** adlı əsərin maraqlı cəhətlərindən biri də bundan ibarətdir ki, müəllif böyük cəsarətlə, həm də təkzibedilməz tarixi faktlar əsasında tarixi şəxsiyyətlərimizə layiq olduqları qiymətin verilməsi ideyasını ictimai fikrə təlqin edir. Bu baxımdan müəllif Ağa Məhəmməd şahın timsalında Qacarlar sülaləsinin XVIII əsrin sonlarına doğru Azərbaycanda mərkəzləşmiş dövlətin yaradılması cəhdlərinə obyektiv qiymət verir. Əsərdə sovet dövrü tarixşünaslığında, eləcə də poeziyasında mənfi şəxsiyyət kimi qələmə verilən, haqqında yanlış rəy formalaşdırılan Ağa Məhəmməd şah Qacarın milli Azərbaycan dövləti uğrunda mübarizə apardığı diqqətə çəkilir. Qacarların xidmətlərini konkret faktlar əsasında diqqətə çəkən müəllif yazır: *“Məncə, Qacarlar dövrünə ümumi sözlərlə yox, fakt və mənbələrlə etdiyimiz bu tarixi səyahət həmin sülalənin iqtidarı dövründə guya Azərbaycanın ölkənin siyasi, mədəni, hərbi və iqtisadi həyatından sıxışdırıldığına, ikinci dərəcəli əyalətə çevrildiyinə dair iddiaların nə qədər əsassız olduğunu əyani şəkildə görməyə imkan verir. Toxunduğumuz faktlar və gətirdiyimiz nümunələr həm də Qacarların guya milli hisslərdən məhrum, farslaşmış, öz xalqının taleyinə biganə və Azərbaycan tarixinə aid edilməyə haqqı olmayan xanədan kimi qələmə verilməsi cəhdlərinin uydurma, qərəzli və subyektiv yanaşma olduğunu başa düşmək üçün kifayətdir. Azərbaycan tarixinin həqiqətlərini bərpa etməkdən çox fars millətçiliyinin mənafelərinə xidmət edən bu nöqteyi-nəzərin kim tərəfindən ortaya atıldığını və təbliğ edildiyini isə anlamaq bir o qədər də çətin deyildir”.*

Akademik bu qənaətə gəlir ki, Azərbaycan xanları vaxtilə birləşib ümumi düşmənə qarşı vahid cəbhədən çıxış edə bilsəydilər, böyük ehtimalla torpaqlarımızın bu qədər asanlıqla və qısa zamanda işğalı mümkün olmazdı. Əsərdə Ağa Məhəmməd şah Qacar, Abbas Mirzə Qacar, Fətəli şah Qacar, Qarabağ xanı İbrahimxəlil xan, Gəncə xanı Cavad xan, Şəki xanı Səlim xan, general Pavel Sisianov, birinci və ikinci Rusiya-İran müharibələri, həmçinin Kürəkçay müqavilələri barədə verilən məlumatlar oxucuya həmin dövrün mühüm şəxsiyyətləri və hadisələrinə dair yığcam məlumatlar çatdırır.

Əsərdə xarici dillərdə olan mənbə və elmi əsərlərə istinad edilir, iqtibaslar gətirilir. Beləliklə, görkəmli akademik xarici ölkələrin alimlərinə tarixi həqiqətin ünvanını elə onların öz dillərində olan ilk mənbələrdə və elmi ədəbiyyatda olduğunu göstərir. Əsərdəki tarixi sənədlər ermənilərin saxta və əsası olmayan təbliğatla qonşu dövlətlərin tarixi ərazilərini ilhaq etmək siyasətinin ifşası baxımından da əhəmiyyətlidir. Həqiqətən də, daşnak ideoloqları 2 əsr ərzində ermənilər haqqında “məzlum”, “əzilən” xalq obrazı yaratmağa çalışmış, əsrin əvvəlində regionda baş verən hadisələr şüurlu surətdə təhrif olunmuş, azərbaycanlılara qarşı soyqırımı törədənlər “soyqırımı qurbanları” kimi qələmə verilmişlər. Hazırda da davam edən bu mənfur siyasətin məqsədi azərbaycanlıları qədim torpaqlarından sıxışdırıb çıxarmaq, bu ərazilərdə erməni tarixçiləri və ideoloqlarının uydurduğu “dənizdən-dənizə böyük Ermənistan” dövləti qurmaqdır. Bu məqsədlə tarixən həyata keçirilmiş terror və soyqırımının qanlı fəsadları təkcə böyük türk dünyasının deyil, bütün bəşəriyyətin başı üstünü qara kabus kimi bürüməklə, insanlığa qarşı yönəlmiş ən amansız, dəhşətli cinayətlərə rəvac vermişdir.

Əsərlə tanışlıq bütövlükdə türk dünyasına qarşı yönəlmiş iftira kampaniyasının əsassızlığını bir daha sübut edir. Bir daha təsdiqlənir ki, saxtalaşdırılmış erməni tarixi gənc ermənilərin şovinist, özgə xalqlara nifrət ruhunda tərbiyə olunmasına zəmin yaratmaq üçün bunu dövlət siyasəti səviyyəsinə qaldırmışdır. Azərbaycan xalqının mənəviyyatına, milli qüruruna və mənliyinə yönəlmiş böhtanlar siyasi və hərbi təcavüz üçün ideoloji zəmin yaratmaq məqsədi güdür. Əsər Azərbaycan xanlıqlar dövrü trixinin obyektiv araşdırılması və yenidən yazılması baxımından tarixçi alimlər qarşısında yeni hədəf və vəzifələr müəyyənləşdirir. Eyni zamanda, gənc nəsildə tariximizin indiyə qədər elmi mənbələrə məlum olmayan yenilikləri ilə bağlı obyektiv təəssürat formalaşdırır.

Ensiklopedik səciyyə daşıyan əsər gərgin axtarışların, elmi təhlillərin, yüksək tədqiqatçı səbatının, vətənpərvərlik və ali vətəndaşlıq duyğusunun təcəssümüdür. Görkəmli akademik böyük zəhmət hesabına ərsəyə gətirdiyi bu əsəri ilə cəmiyyətə belə bir mesaj verir ki, Qarabağ mövzusunda sanballı elmi-təqdiqatların davam etdirilməsi Azərbaycanın milli mənafelərinin, dövlətçilik maraqlarının diktə etdiyi obyektiv zərurətdir; bu məqsədlə daha da böyük səylər göstərilməli, müxtəlif ölkələrin arxiv materialları tədqiq olunmalı, erməni tarixçilərinin saxtakarlıqları konkret məxəzlər əsasında sübuta yetirilməlidir.

Nəhayət, bu sanballı əsər Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 18 yanvar 2018-ci il tarixli “1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında” Sərəncamı ilə qarşıya qoyulmuş hədəflərin reallaşdırılması istiqamətində ilk fundamental tədqiqatlardan biri olaraq yüksək diqqətə layiqdir.

**Aytən MUSTAFAZADƏ,**
**AMEA Hüquq və İnsan Haqları İnstitutunun direktoru,**
**hüquq elmləri doktoru, professor,**
**Milli Məclisin deputatı.**

# Azərbaycanla Ukrayna arasında turizm əlaqələri genişlənəcək






**Bu günlərdə Ukraynanın Azərbaycan Respublikasında fəaliyyət göstərən Ticarət Evində iki ölkə arasında turizm sektorunun genişləndirilməsi ilə bağlı tədbir keçirildi. Mərasimdə Ukraynanın Kiyev, Odessa, Xarkov, Lvov, Sxodnitsa, Truskavets və digər şəhərlərindən gəlmiş qonaqlar, KİV nümayəndələri və Azərbaycanın turizm sahəsində çalışan nümayəndələr iştirak edirdilər.**

Tədbiri giriş sözü ilə açan **Ticarət Evi sədrinin müavini, iqtisad elmləri doktoru, professor Əlibala Məhərrəmzadə** çıxış edərək ilk olaraq mərasimə qatılan qonaqları salamladı. O vurğuladı ki, Prezident İlham Əliyevin titanik səyi nəticəsində Ukrayna-Azərbaycan əlaqələri yüksələn xətlə inkişaf edir, xüsusilə turizm əlaqələrinin genişləndirilməsi istiqamətində müsbət irəliləyişlər müşahidə olunur. Yəqin ki, dost ölkədən ölkəmizə təşrif buyurmuş qonaqlar yaxşı bilir ki, çoxiqlimli Azərbaycan füsunkarlığı, romantikliyi, flora və faunası ilə dünyada şöhrət qazanmışdır. Son illər Azərbaycana istirahətə gələn ukraynalı turistlərin sayı maksimum səviyyəyə çatmışdır.

Vurğulamaq lazımdır ki, Şahdağ idman kompleksi, Quba, Qusar, Qəbələ, Şəki, Şamaxı və Azərbaycanın digər bölgələrinə gələn çoxsaylı turistlər ölkəmizdən xoş təəssüratla ayrılır. Xüsusilə onlara göstərilən xidmət işləri onları razı salır.

Əlibala Məhərrəmzadə sözünə davam edərək əminliklə bildirdi ki, Ukrayna və Azərbaycan arasında turizm sektorunu genişləndirmək məqsədilə yeni aviareyslər açılacaq, paytaxtdan bölgələrin müxtəlif yerlərinə səfər edən turistlərin rahatlığı üçün əlverişli şərait yaradılacaqdır.

Ticarət Evində keçirilən tədbirdə Odessa, Xarkov, Truskavets, Morşen və digər şəhərlərlə bağlı videoçarx nümayiş etdirildi. Ukraynanın geniş və bərəkətli çölləri, atlas geyimli dağları, çayları, istehsal müəssisələri, geniş heyvandarlıq kompleksləri, insanların sağlamlığına xidmət edən müalicə ocaqları, kurort və digər turizm obyektləri hamıda xoş ovqat yaratdı.

Tədbirdə Kiyev şəhəri Turist Assosiasiyasının başçısı Darya Sonyaçko, Xarkov şəhər Beynəlxalq Əməkdaşlıq Departamentinin sədri Alina Listova, Odessa vilayəti dövlət turizm idarəsinin rəhbəri Aleksandr İveka, Lvov vilayəti Dövlət Administrasiyası, Turizm və Kurortlar İdarəsinin rəisi Nataliya Tabaka, Sxodnitsa "Dyana" sanatoriyasının satış şöbəsinin rəisi Yuri Nemiloviç, Turskavetski "Karpat" sanatoriyasının direktoru, şəhər deputatı Ruslan Pristay, Azərbaycandakı Ukrayna Ticarət Evinin baş direktoru Osadçenko Yura Leoneviç və başqaları çıxış etdilər.

Tədbirin sonunda Turoperator Kurortı KU-nun baş direktoru çıxış edərək əminliklə bildirdi ki, Azərbaycanda Ukrayna Ticarət Evinin açılmasını yüksək dəyərləndirirəm. Hər iki ölkə arasında turizm sektorundakı əlaqələr çox səmərə verəcək, Ukrayna və Azərbaycan həmişə dost ölkə kimi tanınacaq, ölkələrimizin iqtisadi potensialı güclənəcəkdir.

**Qədir ASLAN,**
**"Respublika .**

# UTECA-da Aprel zəfəri qeyd edildi





Azərbaycan Texnologiya Universitetində "Vətən saatı" adlı tədbir keçirilib. Aprel döyüşlərinə həsr edilən tədbirdə UTECA-nın məzunu, aprel şəhidi Rəşad Niftalıyevin valideynləri - Şakir və Fərqanə Niftalıyevlər də iştirak ediblər. Əvvəlcə Aprel döyüşlərində vətən uğrunda həlak olan şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra UTECA-nın rektoru, professor Akif Süleymanov çıxış edərək bildirib ki, Azərbaycanın işğal edilmiş ərazilərində qoşunların təmas xəttində təcavüzkar Ermənistan tərəfindən 2016-cı il aprelin əvvəllərində törədilən təxribata ordu hissələrimizin cavab verməsi nəticəsində işğal altında olan 2000 hektara yaxın ərazimizin, o cümlədən mühüm əhəmiyyətli yüksəkliklərin geri qaytarılmasından üç il keçir. Aprel döyüşləri bütün dünyaya Azərbaycan Ordusunun gücünü, qələbə əzmini göstərdi.

UTECA-nın məzunu, aprel şəhidi Rəşad Niftalıyevin atası Şakir Niftalıyev isə bildirib ki, Azərbaycan şəhidlər versə də, Aprel zəfəri bizim gələcək qələbəmizin bünövrəsini qoydu. Həmin döyüşlər nəticəsində Azərbaycan Ordusunun birləşmələri Goranboy rayonuna və Naftalan şəhərinə təhlükə yarada biləcək Talış kəndi ətrafındakı yüksəklikləri azad etdi, Füzuli rayonu istiqamətində yerləşən Lələtəpə yüksəkliyinə nəzarəti ələ keçirdilər. Döyüşlər nəticəsində, Ağdərə-Madagiz istiqamətində yolların nəzarətdə saxlanılması təmin edildi.

Tədbirdə iştirak edən media nümayəndələri və yazıçı-publisist Azər Hacıbəyli çıxışlarında qeyd ediblər ki, Azərbaycan ordusunda, müdafiə sistemində aparılan islahatlar, ölkənin müdafiə qabiliyyətinin artırılması istiqamətində həyata keçirilən tədbirlər bizi bir daha əmin edir ki, işğal altında olan torpaqlarımızı tezliklə azad edəcəyik.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

# Ölkəmizdə ilk dəfə "Tikinti və ekoloji sağlam inşaat materialları Forumu" keçirilib

10 Aprel-İnşaatçılar Günü münasibətilə Azərbaycanda ilk dəfə "Tikinti və Ekoloji Sağlam İnşaat Materialları Forumu" keçirilib. Forum ekoloji sağlam Mr.Fix inşaat materiallarının baş sponsorluğu, Azərbaycan Memarlıq və İnşaat Universiteti (AzMİU), Azərbaycanda Qadın Sahibkarlığın İnkişafı Assosiasiyasının (AQSİA) dəstəyi və PROAKTİV PR Agentliyinin təşkilatçılığı ilə həyata keçirilib. Layihənin məqsədi tikintidə, xüsusən sağlam həyat tərzində ekoloji sağlam inşaat materiallarının önəmini vurğulamaq, cəmiyyəti bu sahədə zəruri praktiki biliklərlə məlumatlandırmaq, keyfiyyətli inşaat materialları istehsalçıları ilə bu sahədə təhsil alan tələbələr və potensial istehlakçı auditoriyası arasında körpü rolu oynayacaq yeni platformanın yaradılmasıdır.

Forumda İqtisadiyyat Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin rəsmi nümayəndələri, AzMİU-nun professorları, inşaat materialları istehsalçıları, tikinti şirkətləri nümayəndələri, eləcə də bu sahədə akademik təhsil alan magistr və doktorantlar iştirak ediblər. AzMİU-nun Ekologiya kafedrasının müdiri, Beynəlxalq Ekoenergetika Akademiyasının prezidenti, professor Fəqan Əliyevin Azərbaycanda memarlıq və inşaatın ətraf mühitə təsiri haqda yerli və beynəlxalq təcrübə əsasında praktiki nümunələr əsasında çıxışı, AzMİU-nun materialşünaslıq kafedrasının müdiri, professor İradə Şirinzadənin ekoloji sağlam inşaat materiallarının tikintidə və insan həyatında önəmi haqda çıxışı, AzMİU-nun mühəndis sistemləri və qurğularının tikintisi kafedrasının müdiri, professor Nurməmməd Məmmədovun binalarda enerji effektivliyi və ekologiya problemləri mövzusunda çıxışı auditoriya tərəfindən maraqla qarşılanıb.

Tədbirdə "Enerji sərfiyyatına maksimum qənaət, maksimum komfort" devizi ilə istehsalına başlanılan Thermomax termo izolyasiya sisteminin təqdimatı keçirilib. Thermomax izolyasiya sistemi tikinti və təmir şirkətləri tərəfindən böyük maraqla qarşılanıb.

Qeyd edək ki, ölkəmizdə ilk dəfə təşkil olunan "Tikinti və Ekoloji Sağlam İnşaat Materialları Forumu" Arka İnşaat Təmir və Tikinti şirkəti, Türkiyənin DİNÇ İstanbul İnşaat şirkətinin, KƏPƏZ Alçının, eləcə də Gobustone ekoloji sağlam məsaməli hörgü bloklarının dəstəyi, yerli və beynəlxalq mətbuatın iştirakı ilə baş tutub.

**AzMİU-nun mətbuat xidməti.**

# Azərbaycan əhalisinin sabit artım tempi

## *Bu, ölkədə sosial-iqtisadi inkişaf prosesinin müsbət demoqrafik təzahürüdür*

**Əhalisinin sayı hər il sabit şəkildə artaraq 10 milyona çatan ölkəmizdə dayanıqlı sosial-iqtisadi tərəqqi, sosial siyasət davamlı xarakter almaqla demoqrafik inkişafa təkan verir. Dünyanın bir çox ölkəsində əhali sayında azalma müşahidə edildiyi halda, Azərbaycanda əhalinin artımı davam edir. Prezident cənab İlham Əliyevin sosial-iqtisadi inkişaf strategiyası nəticəsində bütün sahələrdə mühüm tarixi nailiyyətlərə imza atan, iqtisadi qüdrətini artıran, sabitlik, təhlükəsizlik, əmin-amanlıq məkanı olan ölkəmizdə sosial rifah səviyyəsinin də davamlı olaraq yaxşılaşması özünü göstərir. Bu amillər isə demoqrafik inkişaf üçün vacib şərtlər sırasındadır.**

2003-cü ilin əvvəlindən ölkə əhalisinin sayı 18 faizdən çox və ya 1 milyon 731 min nəfər artıb. Azərbaycanda hər il doğulanların sayı artır, misal üçün 2018-ci ildə ölkədə 139 min doğulmuş körpə qeydə alınıb. Ölkəmizdə doğulanların sayı ölənlərin sayını 2-2,5 dəfə üstələyir. Müsbət miqrasiya saldosu davam edir. 2018-ci ildə daimi yaşamaq




üçün ölkəmizə gələnlərin sayı gedənlərin sayından iki dəfədən çox olub. 2003-cü ildə ölkədə doğulanda gözlənilən ömür uzunluğu 72,3 yaş (o cümlədən kişilər arasında 69,5 yaş, qadınlar arasında 75,1 yaş) idisə, 2018-ci ildə bu göstərici 75,6 yaşa (o cümlədən kişilər arasında 73,1 yaşa və qadınlar arasında 77,8 yaşa) çatıb. Əhalinin artımı qarşısında genişmiqyaslı tədbirlər görülür, yeni uşaq bağçaları və məktəblər, müalicə müəssisələri, idman kompleksləri istifadəyə verilir. Dövlət başçısı Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının yekunlarına həsr olunan konfransda bildirib: "Əhali nə qədər çox olarsa, ölkəmiz də o qədər sürətlə inkişaf edər. Ancaq, əlbəttə, biz bundan sonra da işimizi elə görməliyik ki, iqtisadi inkişaf, iş yerlərinin yaradılması əhalinin artımından daha da sürətli getsin, artan əhali işlə təmin olunsun".

Hazırda ölkəmizdə demoqrafik vəziyyətin qiymətləndirilməsi və təkmil proqnozlaşdırma metodologiyasının yaradılması məqsədilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi BMT-nin Əhali Fondu ilə birgə işlər aparılır.

**"Respublika".**

# İsmayıllıda "Aprel zəfəri" parkı

Azərbaycan ordusu 2016-cı ilin aprel ayında Qələbə əzmində olduğunu, döyüş qüdrətini, işğalçıya layiqli cavab verməyə qadirliyini, cənab Prezident İlham Əliyevin Ali Baş Komandanlığı ilə torpaqlarımızın azad ediləcəyini tamamilə sübuta yetirdi. 2-5 aprel günlərində Lələtəpənin alınması ilə Böyük Qələbəyə gedən yolun, Cocuq Mərcanlıda sakinlərin yenidən məskunlaşması ilə Qarabağa qayıdışın əsası qoyuldu. Qəhrəmanlıqla Aprel zəfər döyüşlərində iştirak edən neçə-neçə vətən övladı şəhid oldu, yaralandı. Şəhid ailələrinə və qazilərə hər yerdə dövlət qayğısı göstərilir.

Bu vacib qayğı istiqamətini həmişə diqqətdə saxlayan İsmayıllı Rayon İcra Hakimiyyəti şəhərin yuxarı hissəsində - 15-ci kvartaldakı Koroğlu küçəsi istiqamətində - 5 hektarlıq sahədə Aprel döyüşlərinə həsr olunmuş "Aprel Zəfəri" salmağı qərara alıb. Artıq burada genişmiqyaslı işlər başlanıb. Ərazi hamarlanıb, ağac əkini üçün yararlı hala salınıb, ətraf təmizlənib, abadlaşdırılıb.



Aprelin 6-da keçirilən kütləvi iməcilik zamanı burada 2 mindən çox küknar, şam, cökə, akasiya, göyrüş, ağcaqayın ağacları əkilib.

Kommunal müəssisələri kombinatının, rayon gənclər və idman idarəsinin, 7 saylı yol yaşıllaşdırma sahəsinin, ərazi ekologiya və təbii sərvətlər şöbəsinin, Meşələrin Bərpası və Mühafizəsi İdarəsinin, İsmayıllı bələdiyyəsinin işçiləri, İsmayıllı Dövlət Humanitar və Texnologiya kollecinin, Peşə Tədris Mərkəzinin müəllim və tələbələri parkın salınmasında məmnunluq və fəallıqla iştirak ediblər.

Yeni başlanan iş davam etdiriləcək. Burada Aprel zəfəri barədə məlumatı əks etdirən xatirə lövhəsi ucaldılacaq. Şəhid Mikayıl Vahabzadəyə həsr olunmuş guşə yaradılacaq. Qardaşlaşmış şəhərlərin nümayəndə heyətləri İsmayıllıya gəldikdə "Aprel Zəfəri"nə gələcək, ağac əkəcəklər.

Yeni park gələcək Qələbəmizə istiqamətli səviyyədə tərtib olunacaqdır.

**Rasim AMANOV,**
**"Respublika".**

# Mayın ilk hərracı: özəlləşməyə 85 dövlət əmlakı çıxarıldı

Vətəndaşlar sadə prosedurlardan keçməklə dövlət əmlaklarının özəlləşdirilməsində rahatlıqla iştirak edə bilərlər. Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən keçirilən hərraclarda yaradılan imkanlar ilə hər kəs onlayn formada seçdiyi əmlakın sifarişçisinə çevrilir. Müasir hərrac sistemi ilə sifarişçilər və adi şəxslər olduğu məkandan prosesə elektron formada qoşula bilir.

Komitə tərəfindən dövlət əmlaklarının özəlləşdirilməsi üzrə növbəti hərrac 7 may tarixində təşkil olunacaq. Budəfəki hərraca ümumilikdə 85 dövlət əmlakı çıxarılıb. Onlardan 23-ü səhmdar cəmiyyəti, 26-sı kiçik dövlət müəssisə və obyekti, 16-sı qeyri-yaşayış sahəsi, 15-i nəqliyyat vasitəsi, 5-i isə yarımçıq tikilidir.

Kiçik dövlət müəssisə və obyektlərinin ümumi faydalı sahəsi 12.2 kvadratmetr ilə 11.2 min kv.m arasındadır. Bu dövlət əmlakları paytaxtla yanaşı, Neftçala, Qazax, İmişli, Zaqatala kimi şəhər və rayonlarda yerləşir. Müəssisələr fəaliyyət istiqamətlərinə görə də müxtəlifdir. Belə ki, onlar arasında ticarət obyekti, yardımçı təsərrüfat, anbar, əmlak kompleksi və digər dövlət əmlakları var. Paytaxtın Sabunçu rayonu, Kürdəxanı qəsəbəsi, Hüsü Hacıyev küçəsindəki qeyri-yaşayış binasının ümumi faydalı sahəsi 87.4 kvadratmetrdir. İlkin hərrac qiyməti 11 min 250 manat olan bu obyekt müxtəlif xidmət sahələri üzrə investora gəlir qazandıra bilər.

Hərraca çıxarılan qeyri-yaşayış sahələrindən isə 7-si paytaxtda, 4-ü Sumqayıtda, 2-si Gəncədə, digərləri isə Bərdə, Daşkəsən və Ağdaşda yerləşir. Bu dövlət əmlaklarının ümumi faydalı sahəsi 5.8 kvadratmetr ilə 52.7 kvadratmetr arasındadır. Qeyri-yaşayış sahələrindən biri Bakı şəhəri, Nərimanov rayonu, Ağa Nemətulla küçəsindədir. Obyektin ümumi faydalı sahəsi 47.9 kvadratmetrdir.

Nəqliyyat vasitələrinin hərracında iştirak etmək istəyən şəxslər buraxılış tarixi 1986-2008-ci illər olan Fiat, Uaz, Qaz və digər markalardan olan avtomobillər üzrə seçim edə bilər. Bu kateqoriyadan olan dövlət əmlaklarının ilkin hərrac qiyməti 2 min manat ilə 7 min manat arasındadır.

Əmlak Məsələləri Dövlət Komitəsi investorları, sahibkarları, iş adamlarını və əmlak sahibi olmaq istəyən hər kəsi hərraclarda fəal iştiraka dəvət edir.

**ƏMDK-nin mətbuat xidməti.**

## *Mingəçevir xəbərləri*

### Abadlıq, quruculuq işləri sürətlə davam edir

Ana Kürün sahilinə, məğrur Bozdağın sinəsinə sığınan Mingəçevir gündən-günə gözəlləşir, simasını dəyişir, səliqə-sahmanı ilə göz oxşayır. Ona bu gözəlliyi, təravəti bəxş edən səmimi və mehriban insanları - mingəçevirlilərdir. Dövlət müstəqilliyimizin bərpasından sonra şəhər həyatının demək olar, hər bir sahəsində mühüm dəyişikliklər və yeniliklər baş verib. Hazırda ölkənin dördüncü sənaye şəhəri olan Mingəçevirdə elektroenergetika, elektrotexnika, kimya, maşınqayırma, yüngül və yeyinti sənaye sahələri inkişaf etdirilir. Şəhər ərazisində 40-a yaxın sənaye müəssisəsi, o cümlədən iki böyük elektrik stansiyası fəaliyyət göstərir. Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə Mingəçevir Sənaye Parkı və Mingəçevir Yüksək Texnologiyalar Parkı yaradılıb. Mingəçevirdə quruculuq-abadlıq işləri davam etdirilir. Son üç ayda Mingəçevir şəhərində yaşayış məhəllələrində abadlıq-quruculuq işləri aparılır. 10 məhəllədə bu işlər yekunlaşıb. Hazırda Naxçıvan küçəsindəki 42, Yadigar Mənsurov küçəsindəki 11, 13 və 15 nömrəli binaların kəsişdikləri məhəllədə də belə yenidənqurma işləri həyata keçirilir. Bu məhəllədə insanların məmnunluğunu təmin etmək üçün yaşıllıqlar salınır, oturacaqlar qoyulur və idman-əyləncə qurğuları quraşdırılır. Sakinlərin arzularını nəzərə alaraq adları çəkilən binaların dəhlizləri əsaslı təmir olunur, pilləkənlar rənglənir, dəhlizlərə yeni qapılar qoyulur, sınıq süşələr yeniləri ilə əvəz olunur. Eyni zamanda binaların fasadları qaydaya salınır.

### Vətəndaşların səyyar qəbulu xoş ovqat yaradır

Təbii ki, bununla yanaşı, vətəndaşlarla səyyar görüşlər keçirilir, onların problemləri dinlənilir və bu problemlər mərhələ-mərhələ həyata keçirilir. Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılovun sakinlərlə səyyar görüşü şəhərin bütün yerlərində həyata keçirilir. Səyyar görüşdə daha çox qaldırılan əsas məsələlər şəhərin suvarma sistemi, istilik problemi ilə bağlı olub. Şəhər icra hakimiyyətinin başçısı İlham İsmayılov sakinlərlə görüşdə qeyd edib ki, ölkə Prezidenti İlham Əliyevin tapşırığına əsasən sakinlərlə keçirilən səyyar görüşlərin əsas məqsədi onları narahat edən problemləri, arzu və istəkləri, fikir və təklifləri öyrənmək, fəaliyyətini bu istiqamətdə davam etdirməkdir. Mingəçevirdə içməli su xətlərinin yenidən çəkilişindən sonra son illər şəhərdə yaşıllığın suvarılmasında narahatlıq yaşanırdı. Başçı görüşlərin birində əhaliyə bildirib ki, bu problem artıq həllini tapıb. Başçı qeyd edib ki, şəhərin köhnə su xətti yenidən bərpa olunaraq suvarma sistemi üçün istifadə olunacaq. Digər qaldırılan məsələlərə də aydınlıq gətirən İlham İsmayılov qeyd edib ki, Mingəçevirdə 465 hündür mərtəbəli binanın yalnız 74-nün dam örtüyü dəyişdirilməmiş qalır. Bunun üçün də müraciət olunub vəsait ayrılan kimi bu işlər də davam etdiriləcək. İstilik sistemi ilə bağlı qaldırılan məsələlərə də aydınlıq gətirilib. Belə ki, Mingəçevirdə 19 qazanxanadan 2-si təmir edilib. Qalan 17 qazanxananın bərpası üçün danışıqlar aparılır. Qeyd edək ki, ötən illər ərzində şəhərdə abadlıq-quruculuq işləri genişlənmiş, küçə və məhəllələrdə, parklarda səliqə-sahman yaradılmışdır. İşıqlandırma sistemi müasirləşdirilmiş, bir sıra çoxmərtəbəli binaların dam örtükləri, fasadları əsaslı təmir edilmiş, Mingəçevirin bir sıra məhəllələrində nümunəvi şərait yaradılmışdır.

Ölkə Prezidenti İlham Əliyev özəl təbii və coğrafi xüsusiyyətlərə malik Mingəçevirin hərtərəfli inkişafı üçün qayğısını əsirgəmir. Prezident İlham Əliyev bu şəhərə 7 dəfə səfər edib. Azərbaycanın sürətli sosial-iqtisadi inkişafı Mingəçevir şəhərinin timsalında da özünü göstərməkdədir. Şəhər getdikcə abadlaşır, sənaye potensialı artır, yeni-yeni iş yerləri açılır. Şəhər sakinləri diqqət və qayğıya görə cənab Prezident İlham Əliyevə minnətdarlıqlarını bildirirlər.

**İlham PƏNAHOV,**
**"Respublika".**

# AzerTelecom Transxəzər magistralı layihəsinin icrasına başladı

**Azərbaycanı beynəlxalq internet şəbəkəsinə bağlayan magistral (backbone) internet provayderi AzerTelecom şirkəti Azərbaycanın Regional Rəqəmsal Mərkəzə çevrilməsi üçün həyata keçirdiyi "Azerbaijan Digital Hub" proqramı çərçivəsində Transxəzər layihəsinin bir həssəsi olan Azərbaycan və Qazaxıstan arasında Xəzər dənizinin dibi ilə fiber-optik magistral kabel xəttinin çəkilişi layihəsinə başlayıb.**

Bu məqsədlə Azərbaycan tərəfdən AzerTelecom şirkəti və Qazaxıstan tərəfdən Transtelekom və KazTransCom şirkətləri arasında ümumi uzunluğu 380-400 km olacaq Transxəzər magistralının çəkilməsi ilə bağlı Konsorsium təsis edilib, birgə İşçi qrup yaradılıb, tikinti üzrə müvafiq müqavilə imzalanıb.

Layihənin icrası üçün Azərbaycan və Qazaxıstan arasında "Azərbaycan Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında Azərbaycan Respublikasının və Qazaxıstan Respublikasının rabitə operatorları tərəfindən Azərbaycan-Qazaxıstan marşrutu üzrə Xəzər dənizinin dibi ilə fiber-optik rabitə xətlərinin birgə tikintisi, sahibliyi və istifadəsində müştərək fəaliyyətin təşkili haqqında" dövlətlərarası Saziş imzalanıb və müvafiq olaraq Azərbaycan dövləti tərəfindən təsdiqlənib.

Mühüm strateji əhəmiyyət daşıyan bu layihənin reallaşmasına nüfuzlu beynəlxalq konsaltinq və telekommunikasiya şirkətləri olan McKinsey and Company, Detecon, Axiom, DLA Piper, Huawei, PwC kimi şirkətlər də cəlb olunub.

Transxəzər fiber-optik magistralının çəkilişi AzerTelecom şirkətinin həyata keçirdiyi "Azerbaijan Digital Hub" (ADH) proqramının bir hissəsidir. Bu proqram çərçivəsində Transxəzər fiber-optik magistralının çəkilişi Avropa ilə Asiya arasında Azərbaycandan keçməklə rəqəmsal dəhlizin yaradılmasına mühüm töhfə verəcəkdir və Azərbaycanı regionun Enerji və Nəqliyyat mərkəzinə paralel olaraq həmçinin Rəqəmsal Mərkəzinə (Digital Hub) çevirəcəkdir. Transxəzər fiber-optik magistralının ümumilikdə regionun fiber-optik kabel infrastrukturunun inkişafında, Qafqaz, Yaxın Şərq, Orta Asiya və Cənubi Asiya, eləcə də digər ətraf regionların yüksək sürətli internet bağlantısı və qabaqcıl rəqəmsal xidmətlərlə təmin edilməsində müstəsna rolu olacaqdır.

Bu layihənin icrası həmçinin Çinin təşəbbüskarı olduğu "Belt and Road İnitiative" (BRİ) layihəsinə də öz töhfəsini verəcək və Azərbaycanı "Belt and Road İnitiative" (BRİ) layihəsinin telekommunikasiya dəhlizinə çevirəcəkdir.

Azərbaycanın Rəqəmsal Mərkəzə (Digital Hub) çevrilməsi ölkəmizin telekommunikasiya ekosisteminin dünya standartları səviyyəsinə çatdırılması, internetin Orta və Cənubi Asiya, Yaxın Şərq, eləcə də digər ətraf regionlara verilməsində tranzit ölkə və Rəqəmsal Mərkəz olması deməkdir. Bu, həmçinin Azərbaycanın Avropa ölkələrindən Çinə qədər olan fiber-optik magistral infrastrukturu şəbəkəsində mərkəzi mövqe əldə etməsidir. Azərbaycanın "Digital Hub"a çevrilməsi ilə perspektivdə dünyanın İnternet xəritəsinə London, Frankfurt, Sofiya, İstanbul, Moskva, Amsterdam, Dubay ilə yanaşı Bakı şəhəri də əlavə olunacaqdır. Layihə dünya miqyaslı qlobal rəqəmsal xidmətlər təchizatçıları olan korporasiyaların (Apple, Amazon, Alibaba, Google, Facebook, Netflix və s.) Azərbaycana gəlməsi, ölkəmizin kiber-təhlükəsizliyinin yüksəldilməsi, yeni iş yerlərinin açılması, kiçik və orta sahibkarlığın inkişafı, Qafqaz, Orta və Cənubi Asiya, Yaxın Şərq və digər ətraf regionlarda yaşayan 1.8 milyard əhalinin (dünya əhalisinin 1/4-i) internet və rəqəmsal xidmətlərlə daha yaxşı təmin edilməsi, bu region dövlətlərinə Azərbaycandan müxtəlif rəqəmsal xidmətlərin "Made in Azerbaijan" brendi altında ixrac edilməsinə öz töhfəsini verəcəkdir.

AzerTelecom Azərbaycanın dinamik şəkildə inkişaf edən telekommunikasiya operatorudur. Şirkət 2008-ci ildə təsis edilib və ölkənin ilk mobil operatoru - Bakcell şirkətinin törəmə müəssisəsidir. AzerTelecom ölkənin bütün əsas region və şəhərlərini əhatə edən şaxələnmiş və dayanıqlı fiber-optik kabel şəbəkəsinə sahibdir. AzerTelecom şirkətinin beynəlxalq şəbəkəsi isə dünya üzrə bütün əsas telekommunikasiya hablarına birləşir. Şikrət internetin topdan satışı, ayrılmış kanal xidməti, mobil şəbəkələrdə nəqletmə, beynəlxalq tranzit, DDoS hücumdan müdafiə, VPN, FTTx, Data Mərkəz xidmətləri, SİP telefoniya və digər telekommunikasiya xidmətləri təqdim edir.

**"Respublika".**

# Azercell tərəfindən ödənişsiz göz müayinələrinin təşkili davam edir



**Azərbaycanın mobil rabitə bazarında lider mövqedə qərarlaşan Azercell şirkətinin təşkil etdiyi ödənişsiz tibbi müayinələrdən minlərlə insan faydalanıb. Şirkətin dəstəyi ilə fəaliyyət göstərən "Mobil Göz Klinikası" 2011-ci ildən etibarən bu müayinələri davamlı olaraq keçirməkdədir. Klinika tərəfindən 3 aprel 2019-cu il tarixində, Pereküşkül qəsəbəsi, hərbi şəhərciyin ərazisində yerləşən 1 saylı tam orta məktəbə növbəti səfər təşkil edilib. Səfər çərçivəsində 52 nəfərin müayinəsi aparılıb, ehtiyacı olanlara müalicə təyin olunub, optik eynəklər paylanılıb.**

Qeyd edək ki, valideyn himayəsindən məhrum olan uşaqlarda göz xəstəliklərinin müayinəsinin təşkilini və profilaktikasının aparılmasını təmin etmək məqsədilə yaradılan "Mobil Göz Klinikası"nın xidmətlərindən eyni zamanda ahıllar, aztəminatlı ailələr və məcburi köçkünlər də yararlanır. Bütün müayinə və müalicə tədbirləri Azercell-in dəstəyi ilə "Xəzər Qayğıkeşlik Layihəsi" İctimai Birliyi tərəfindən həyata keçirilir. ■

## BİLDİRİŞ

"Azərbaycan Sənaye Korporasiyası" ASC "Azəripək" MMC-nin Şəki şəhəri, F.X.Xoyski küçəsində yerləşən müəssisəsində əsaslı təmir işlərinin satınalınmasına dair 07.03.2019-cu il tarixində "Respublika" qəzetində, 06.03.2019-cu il tarixində ask.gov.az internet saytında təkliflər sorğusunun keçirilməsi ilə bağlı elan dərc olunmuşdur.

Keçirilmiş satınalma prosesi nəticəsində "Dövlət Satınalmaları haqqında" Qanunun 36.7.2-ci maddəsinə əsasən AZ1078 Azərbaycan Respublikası, Bakı şəh, Nərimanov ray, H.Əliyev ev 92B ünvanında yerləşən "VS Energy Service" MMC şirkəti qalib gəlmişdir. Həmin təşkilatla 02.04.2019-cu il tarixində 705 881.60 (yeddi yüz beş min səkkiz yüz səksən bir manat, altmış qəpik) manat qiymətində müqavilə imzalanmışdır.

**"ASK" ASC-nin Tender Komissiyası.**

# On milyonuncu sakinin şərəfinə konsert





Gəncədə Azərbaycan əhalisinin sayının 10 000 000-na çatması böyük coşqu ilə qarşılanıb və geniş konsert proqramı ilə bayram edilib. Gəncə Şəhər İcra Hakimiyyətinin təşəbbüsü ilə Heydər Əliyev meydanında şəhər icra hakimiyyətinin başçısı Niyazi Bayramov, millət vəkilləri, idarə, müəssisə və təşkilat rəhbərləri, ictimaiyyət nümayəndələri, sakinlər və şəhərin qonaqları bayram tədbirində iştirak edirdilər. Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyasının kollektivi tamaşaçılar qarşısında rəngarəng musiqi proqramı ilə çıxış edərək, sakinlərə xoş əhvali-ruhiyyə bəxş edillər. Konsert boyu meydanda Azərbaycanın üçrəngli dövlət bayrağı dalğalanıb, şən mahnılar, bir-birindən maraqlı milli rəqslər tamaşaçıların alqışları ilə müşayiət olunub, balaca fidanlar qol qaldırıb oynayıblar.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

## NƏRİMANOV RAYONU MƏNZİL-KOMMUNAL TƏSƏRRÜFATI BİRLİYİ

### Ödənişli ictimai işlərə cəlb edilmiş işçilərin xüsusi geyimlər və təsərrüfat malları ilə təmin edilməsi məqsədilə podratçı təşkilatın seçilməsinin satınalınması üçün təkliflər sorğusu elan edir.

Təkliflər 18 aprel 2019-cu il saat 17:00-dək qəbul edilir.

Təklif zərfləri 19 aprel 2019-cu il saat 16:00-da açılacaqdır.

**Əlaqələndirici şəxs;** *Cahangirov Telman*
**Tel.:** *055 (719-81-30)*
**Ünvan:** *Bakı şəhəri, Nərimanov rayonu, Dəmirçizadə küç., 22.*

# Səməd Vurğun adına Kiyev şəhər Kitabxanasına Azərbaycan haqqında kitablar göndərildi

Xəbər verdiyimiz kimi, Bakı şəhər Mədəniyyət Baş İdarəsi M.Ş.Vazeh adına Yasamal rayon Mərkəzi Kitabxanası Səməd Vurğun adına Kiyev şəhər Kütləvi Kitabxanası ilə əməkdaşlıq edir, təcrübə mübadiləsi aparır, birgə tədbirlər keçirir.

Kiyev şəhərində yaşayan soydaşlarımızın və kitabxananın müraciətlərini nəzərə alaraq, Səməd Vurğun adına Kiyev şəhər kitabxanasına Yasamal rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi (MKS) tərəfindən müxtəlif mövzuları əhatə edən 100-ə yaxın kitab göndərildi. Bunların arasında ümummilli lider Heydər Əliyev, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Azərbaycanın Birinci vitse-



prezidenti Mehriban Əliyevanın mədəniyyət sahəsində gördüyü işlər haqqında toplular, Azərbaycanın tarixi, mədəniyyəti, tarixi abidələri haqqında nəfis şəkildə nəşr olunmuş kitablar, ensiklopediyalar, uşaq ədəbiyyatı, Azərbaycan ədəbiyyatının klassikləri Nizami, Nəsimi, Füzulinin, müasir Azərbaycan yazıçılarının əsərləri və s. kitablar vardır.

Kitablar Yasamal Rayon İcra Hamiyyətinin maliyyə dəstəyi ilə Ukraynaya göndərilmişdir. Yaxın vaxtlarda kitablar Kiyev şəhər kitabxanasının oxucularına təqdim olunacaq.

**"Respublika".**

## BİLDİRİŞ

ASK ASC-nin törəmə müəssisəsi olan "Azəripək" MMC-nin Şəki şəhəri, F.X.Xoyski küçəsində yerləşən müəssisəsində 2 ədəd, hər biri 2000 kq olan liftlərin təmiri və digər işlərinin satın alınmasına dair 07.03.2019-cu il və 19.03.2019-cu il tarixli "Respublika" qəzetində, 06.03.2019 və 18.03.2019-cu il tarixində isə ask.gov.az saytında dərc edilmiş təkliflər sorğusu metodu ilə keçirilən satınalma prosedurunda ən aşağı qiymət təklifi vermiş və şərtlər toplusunda göstərilən bütün tələblərə cavab verən, Bakı şəhəri, Seyidbəyli küçəsi 30 ünvanında yerləşən "Leon" İnkişaf Komersiya Firması qalib gəlmişdir. Həmin təşkilatla 09.04.2019-cu il tarixində 44 132,00 manat qiymətində müqavilə imzalanmışdır.

**"ASK" ASC**
**Tender Komissiyası.**

## Astara Rayon İcra hakimiyyəti

## BİLDİRİŞ

"Respublika" qəzetinin 23.01.2019-cu il və 03.02.2019-cu il tarixli nömrələrində dərc edilmiş Açıq tender müsabiqəsində Astara şəhəri ərazisində Mənzil fondunun əsaslı təmiri işlərinin görülməsinin satınalınması ilə əlaqədar Lot-2 üzrə "M-Təmir Tikinti İnşaat" MMC, abadlıq işlərinin görülməsinin satınalınması ilə əlaqədar Lot-3 üzrə "Elvin" MMC, Bayram tədbirlərinin təşkili işlərinin görülməsinin satınalınması ilə əlaqədar Lot-4 üzrə fiziki şəxs Hüseynov Alim Tarif oğlu qalib elan olunmuş və həmin şirkətlərlə müvafiq satınalma müqaviləsi bağlanılmışdır.

**Tender Komissiyası.**

## "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti

## BİLDİRİŞ

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti tərəfindən yanğından mühafizə vasitələrinin satınalınması ilə əlaqədar 29 mart 2019-cu il tarixdə elan olunan açıq tenderdə iştirak etmək üçün sənədlərin təqdim edilməsi müddəti artırılaraq 01 may 2019-cu il saat 18.00-dək, tender təklifi və bank zəmanətinin təqdim edilməsi 07 may 2019-cu il saat 18.00-dək nəzərdə tutulmuşdur. İddiaçıların təklif zərfləri 08 may 2019-cu il tarixdə, saat 11.00-da açılacaqdır.

**Əlaqələndirici şəxs:** *Nilufər İsmayılova*
**Tel.:** *(+99412) 499-66-17.*

**TENDER KOMİSSİYASI.**

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin tabeliyində "MİDA" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən Bakı şəhəri, Yasamal rayonu, Xarici dairəvi avtomobil yolunun kənarında (Qanlı gölün şimal hissəsi) yerləşən 15,4 ha torpaq sahəsində çoxmənzilli binaların tikintisi ilə əlaqədar 2018-ci il 21 dekabr tarixində keçirilmiş açıq tenderin nəticələrinə əsasən Lot-1 üzrə "Torma" MMC ilə "NN Group" MMC konsorsiumu, Lot-2 üzrə "Chinar İnshaat" MMC ilə "Caspian Service" MMC konsorsiumu, Lot-3 üzrə "HN Construction" MMC, Lot-4 üzrə "NN Group" MMC, Lot-5 üzrə "HÜNƏR-İNŞAAT" Firması, Lot-6 üzrə "Faktor Group-S" MMC və Lot-7 üzrə "Körpü-Bina-Tikinti" MMC qalib müəyyən edilmiş və müvafiq satınalma (podrat) müqavilələri bağlanmışdır.

**"MİDA" MMC.**

# DÖVLƏT SƏRHƏD XİDMƏTİ MƏTBUAT MƏRKƏZİNİN MƏLUMATI



**2019-cu ilin 9 aprel tarixində Rumıniyanın paytaxtı Buxarest şəhərində keçirilən güləş üzrə Avropa çempionatında Dövlət Sərhəd Xidmətinin "Sərhədçi" idman olimpiya mərkəzinin hərbi qulluqçuları polkovnik-leytenant Firdovsi Umudovun rəhbərliyi altında leytenant Hacı Əliyev və leytenant**



**Cəbrayıl Həsənov bütün rəqiblərinə qalib gələrək qızıl medal qazanmışlar.**

Dövlət Sərhəd Xidmətinin şəxsi heyəti adından sərhədçi zabitləri təbrik edir, dövlət bayrağımızı yüksəltdiklərinə, dövlət himnimizi səsləndirdiklərinə görə minnətdarlığımızı bildiririk! ■

## "ASK ŞÜŞƏ" MMC mexanik ehtiyat hissələrlə və xırda avadanlıqla təmin etmək üçün malların (işlərin, xidmətlərin) satınalması məqsədilə

## TƏKLİFLƏR SORĞUSUNU ELAN EDİR

İddiaçılar texniki göstəricilərini və şərtlər toplusunu əldə etmək üçün Ramil Şalbuzov ilə (tel.: +994552251595, e-mail: ramil.shalbuzov@ask-glass.com) əlaqə saxlaya bilərlər.

Təkliflər Sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər imzalanmış və möhürlənmiş qiymət təkliflərini 30 aprel 2019-cu il saat 13:00-dan gec olmamaq şərtilə Bakı şəhəri, Qaradağ rayonu, Sahil qəsəbəsi, Salyan şosesi 25-ci km ünvanına təqdim etməlidirlər.

Qiymət təklifləri 30 aprel 2019-cu il saat 15:00-da Bakı şəhəri, Qaradağ rayonu, Sahil qəsəbəsi, Salyan şosesi 25-ci km ünvanında açılacaqdır.

**TENDER KOMİSSİYASI.**

## BİLDİRİŞ

"Bakı Metropoliteni" QSC tərəfindən 20.02.2019-cu il tarixdə keçirilmiş Tədris Mərkəzi üçün model və maketlərin hazırlanması xidmətinin " "Açıq Tender" üsulu ilə satın alınmasına dair müsabiqədə 09.04.2019-cu il tarixdə Fiziki şəxs Həsənli Emil Hüseynqulu oğlu - ƏDV-siz 47000,00 manat (qırx yeddi min manat 00 qəpik), Fiziki şəxs Musayev Novruz Oruc oğlu - ƏDV-siz 33500,00 manat (otuz üç min beş yüz manat 00 qəpik) məbləğində qalib elan olunmuşdurlar və müvafiq satınalma müqavilələri imzalanmışdır.

**"Bakı Metropoliteni" QSC-nin**
**Tender Komissiyası.**

**"Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti 05 fevral 2019-cu il tarixdə keçirdiyi Lot-1 və Lot-2 üzrə Açıq tenderin qalibi "Ema" MMC ilə müqavilə bağlamışdır.**

**Tender Komissiyası.**

**"Respublika" qəzetin 10.04.2019-cu il tarixli nömrəsində Samux Rayon İcra Hakimiyyəti tərəfindən verilmiş elanda "Təkliflər sorğusu" sözlərinin əvəzində "Katirovka" sorğusu oxunmalıdır.**

## YASAMAL RAYONU MƏNZİL KOMMUNAL TƏSƏRRÜFAT BİRLİYİ

### Ödənişli İctimai işlərə cəlb edilmiş işçilərin xüsusi geyimlər və təsərrüfat malları ilə təmin edilməsi məqsədilə podratçı təşkilatın seçilməsinin satınalınması üçün təkliflər sorğusu elan edir.

Təkliflər 18 aprel 2019-cu il saat 17:00-dək qəbul edilir.

Təklif zərfləri 19 aprel 2019-cu il saat 16:00-da açılacaqdır.

**Əlaqələndirici şəxs:** *Məmmədova Xalidə*
**Tel.:** *050 (445-77-38)*
**Ünvan:** *Bakı şəhəri, Ələsgər Ələkbərov küç. 535-ci məhəllə.*

## Abşeron Rayon İcra Hakimiyyəti Xırdalan Şəhər İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyi

## TENDERƏ DƏVƏT

**Tender 1 (bir) lot üzrə kecirilir:**

**Lot-1.** Xırdalan şəhərində abadlıq işləri

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə 50 (əlli) manat məbləğində iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Abşeron rayonu, Xırdalan şəhəri, Qalubiyyə küçəsi, 1 ünvanından (Əlaqələndirici şəxs: Əhmədağa Qasimi, telefon: 442-63-94) ala bilərlər.

*Təşkilat: Abşeron Rayon İcra Hakimiyyəti Xırdalan şəhər İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyi*

*Hesab: AZ19CTRE00000000000002516832*
*VÖEN: 3100155091*
*Bank: Dövlət Xəzinadarlığı Agentliyi*
*Kod: 210005*
*Müxbir hesabı:*
*AZ41NABZ01360100000000003944*
*VÖEN: 1401555071*
*S.W.İ.F.T.BİK - CTREAZ2X*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*-tenderdə iştirak etmək üçün yazılı müraciət;*

*-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*

*-tender təklifi (zərflərin açıldığı tarixdən ən azı 30 bank günü qüvvədə olmalıdır);*

*-tender təklifinin dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);*

*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*

*-iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*

*-iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*

*-İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri. Görülən işlər təqdim olunmuş qrafikə əsasən yerinə yetirilməlidir.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla)17 may 2019-cu il saat 17.00-dək, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 27 may 2019-cu il saat 17.00-dək Xırdalan Şəhəri İcra Nümayəndəliyinə (ünvan: Abşeron rayonu, Xırdalan şəhəri, Qalubiyyə küçəsi, 1) təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 29 may 2019-cu il saat 12.00-da yuxarıda göstərilən ünvanda acılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**TENDER KOMİSSİYASI.**

## BİLDİRİŞ

"Bakı Metropoliteni" QSC tərəfindən 04.03.2019-cu il tarixində keçirilmiş tyubinglərin "Açıq Tender" üsulu ilə satınalınmasına dair müsabiqədə "Azelektromaş" ASC qalib elan olunmuşdur. Qalib gəlmiş təşkilat ilə 09.04.2019-cu il tarixdə ƏDV daxil 2 721 443.39 (iki milyon yeddi yüz iyirmi bir min dörd yüz qırx üç manat 39 qəpik) məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

**"Bakı Metropoliteni" QSC-nin**
**Tender Komissiyası.**

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin tabeliyində "MİDA" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 2019-cu il 17 yanvar tarixində keçirilmiş açıq tenderin nəticələrinə əsasən Lot-1 - "Güzəştli Mənzil" Sisteminin informasiya təhlükəsizliyi üzrə həllinin, texniki dəstək xidmətinin və tələb olunan proqram təminatlarının satınalınması üzrə "R.İ.S.K. Elmi-İstehsalat Şirkəti" QSC və Lot-2 - "Güzəştli Mənzil" Sisteminin verilənlər bazası üçün zəruri lisenziyaların satın alınması üzrə "Smart İT" MMC qalib müəyyən edilmiş və müvafiq satınalma müqavilələri bağlanmışdır.

**"MİDA" MMC.**

## BİLDİRİŞ

İsmayıllı Rayon İcra Hakimiyyəti başçısının Şəhər İƏD üzrə nümayəndəliyi "Respublika" qəzetindəki 22 yanvar 2019-cu il tarixli, 02 fevral 2019-cu il tarixli və 05 mart 2019-cu il tarixli elanlara əsasən İsmayıllı şəhərində mənzil fondunun əsaslı təmiri üzrə açıq tender proseduru baş tutmuş və tenderin qalibi "M.F. Təmir Tikinti" MMC ilə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

**Tender Komisiyası.**

# Azərbaycanda yaşamış almanların məişəti və mədəniyyəti haqqında yeni kitab çapdan çıxıb

AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun şöbə müdiri, etnoqraf Emil Kərimovun "Azərbaycan almanlarının etnoqrafik xüsusiyyətləri" adlı monoqrafiyası çapdan çıxıb. Əsər Azərbaycanda yaşamış almanların etnoqrafik xüsusiyyətlərinə həsr edilib. Məlumdur ki, 2016-cı il avqustun 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Cənubi Qafqaz regionunda alman məskənlərinin salınmasının 200 illiyi haqqında" Sərəncam imzalayıb. Sərəncamda vurğulanır ki, əsrlərboyu formalaşan tolerantlıq alman mühacirləri və azərbaycanlılar arasında sıx əməkdaşlıq üçün əlverişli şərait yaradıb.

Azərbaycan-Almaniya tarixi-mədəni və iqtisadi əlaqələri çox qədim tarixə malikdir. E.Kərimovun kitabında, ilk dəfə olaraq, almanların Azərbaycanda məskunlaşması, onların maddi-mənəvi mədəniyyəti və məişəti ilə bağlı məsələlər təhlil olunub.

Almanların Azərbaycana gəlişinin əsas səbəbləri Napoleonun apardığı müharibələr, Almaniyada baş verən ağır iqtisadi böhran, aclıq və səfalət, müxtəlif dini təriqətlər arasında çəkişmələr, dini fanatizm idi.

Almanlar 1819-1923-cü illər ərzində Azərbaycanda 8 məskən salıblar: Yelenendorf (Göygöl şəhəri), Qeorqsfeld (Şəmkir rayonu, Çinarlı kəndi), Traubenfeld (Tovuz şəhəri ərazisi), Ayqenfeld (Şəmkir rayonu, İrmaşlı kəndi), Annenfeld (Şəmkir şəhəri ərazisi), Jelizavetinka (Ağstafa rayonu, Xətai kəndi), Qrünenfeld (Ağstafa şəhəri ərazisi), Alekseyevka (Ağstafa rayonu, Həsən-Su kəndi). Yeri gəlmişkən qeyd edək ki, bu il həmin məskənlərdən ikisinin - Yelenendorf və Annenfeldin əsasının qoyulmasının 200 ili tamam olur.

Azərbaycanda yaşamış almanlar alman dilinin şvab və alleman dialektlərində danışırdılar. Şvablar etnik mənsubiyyətinə görə alman etnik qruplarından biridir və Almaniyanın Vürtemberq və Şvabiya tarixi əyalətində məskunlaşıblar. Azərbaycanda yaşadıqları 123 il müddətində bu dillərinin leksik tərkibinə rus və Azərbaycan dillərindən xeyli söz daxil edilib.

Almanlar dini mənsubiyyətinə görə protestantlığın bir istiqaməti hesab olunan lüteran -yevangelistlərdir.

Kitabda XIX əsrin 20-30-cu illərində bəzi Avropa missionerlərinin Qarabağ azərbaycanlıları arasında (xüsusilə Şuşada) xristianlığı yaymaq cəhdləri və bunun nəticə etibarilə iflasa uğraması məsələlərinə də geniş yer verilib.

Gürcüstanda yaşamış almanların təsərrüfat məişətində maldarlıq əsas sahə hesab olunurdu. Bundan fərqli olaraq, Azərbaycan almanları əsas etibarilə üzümçülük və şərabçılıqla məşğul olublar.

Almanların Azərbaycana gəldikləri ilk günlərdən iki xalqın bir-birinə qaynayıb-qarışması və təsərrüfatın bütün sahələrində mədəniyyətlərin qarşılıqlı zənginləşməsi prosesləri davam edib. Almanlar azərbaycanlıların ənənəvi əkinçilik sistemlərində və suvarmada geniş tətbiq etdikləri arx və kəhrizlərdən də geniş istifadə edirdilər. Onlar taxıl toxumlarını da azərbaycanlılardan alırdılar. Öz növbəsində, almanların sayəsində yerli əhali kartof və digər tərəvəzlərlə tanış olub. Azərbaycana gəldikləri ilk günlərdə məişət çətinlikləri ilə üzləşən almanlar onları azərbaycanlıların köməyi ilə asanlıqla həll




edə biliblər.

Kitabda almanların ənənəvi maddi mədəniyyətinə aid maraqlı faktlar yer alıb. Yaşayış evlərinin tikintisində alman memarlığında tətbiq olunan faxverk sistemindən geniş istifadə edilirdi. Onların Azərbaycandakı yaşayış evləri Almaniyadakı bürqerlərin evlərini xatırladır. Belə yaşayış evləri etnoqrafiya elmində "alleman ev tipi" adlanır.

Şvablar zəngin musiqi mədəniyyətinə malikdir. Azərbaycanda yaşamış alman ailələrinin çoxunda azı bir musiqi aləti var idi. Bir zamanlar arxeoloq J.Hummelin təşkil etdiyi Xanlar Diyarşünaslıq muzeyində (indiki Göy-Göl) XVIII-XIX əsrlərə aid musiqi alətləri (fisqarmon, klavir, sitra, klarnet) nümayiş etdirilirdi. Şvabların repertuarında XV-XVII əsrlərə aid mahnılar və XVIII-XIX əsrlərin meşşan romansları mühüm yer tuturdu.

Zəngin illüstrasiyalı kitaba almanlara aid elmi ictimaiyyətə və geniş oxucu kütləsinə az məlum olan nadir materiallar əlavə edilib. Tədqiqat əsəri etnoqraflar, arxeoloqlar, tarixçilər və ümumilikdə geniş oxucu kütləsi üçün nəzərdə tutulub.

**AZƏRTAC**

## "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti

# AÇIQ TENDER ELAN EDİR

**Tender 3 lot üzrə keçirilir:**

**Lot 1:** İKT avadanlıqlarının;

**Lot 2:** Ups və kabellərin;

